# Səyyar qəbullar

İnsan həyatı mübarizələrlə doludur. Hər kəs öz həyatı, yaşamı üçün özünəməxsus problemlərlə qarşılaşır. Bəzən qarşılaşdığı problemləri həll edərkən bir çox maneələr onu çətin vəziyyətə salır. Ancaq xeyirxah əməlli insanların vasitəsilə problemlər həll olunur və həyat davam edir.

Respublikanın bütün bölgələrində xalqın rifah halının daha da yaxşılaşdırılması, yaşayış tərzinin yaşadığımız zamanın tələbinə uyğun formalaşdırılması həmişə diqqət mərkəzində saxlanılır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin iyun ayından səyyar qəbul Kürd, Yemişanlı, Bunud və Yeni Dizaxlı kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.





Yemişanlı kəndi.



Bunud kəndi.





Yeni Dizazlı kəndi.



Kürd kəndi.

**“Qəbələ”**

**Fotolar Səhrab Umuyevindir.**

# İndoneziya Respublikasının Azərbaycan Respublikasındakı səfiri Hildi Hamid Qəbələ rayonuna səfər etmişdir



İndoneziya Respublikasının Azərbaycan Respublikasındakı səfiri Hildi Hamid Qəbələ rayonuna səfəri çərçivəsində 16 iyun 2023-cü il tarixdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abudllayevlə görüşmüşdür. Görüş zamanı RİH başçısı tərəfindən rayonun iqtisadi göstəriciləri, sosial və mədəni həyatı, rayonda yaradılan yeni istehsal müəssisələri, sənaye və turizm obyektləri barədə ətraflı məlumat verilmişdir. Qeyd olunmuşdur ki, İndoneziya Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi tərəfindən Qəbələdə keçiriləcək iqtisadi və mədəni tədbir iki ölkə arasında siyasi, iqtisadi və sosial-mədəni əlaqələrin daha da inkişaf etməsinə böyük töhvə verəcəkdir.



Səfir Hindi Hamid isə bu tədbirin ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi və İndoneziya Respublikası ilə Azərbaycan Respublikası arasında imzalanmış diplomatik əlaqələrin 31 illiyi ərəfəsində keçirildiyini vurğulayaraq, səmimi qarşılandığına görə minnətdarlığını bildirmişdir.

Qəbələ rayon Mədəniyyət Mərkəzində İndoneziya Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi tərəfindən təşkil edilmiş tədbirdə səfir Hildi Hamid, səfirliyin, Qəbələ Rayon İcra Hakimiyyətinin, rayonun idarə və təşkilatlarının, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Öncə İndoneziya Respublikasının məhsullarından ibarət sərgiyə baxış keçirilmişdir. Tədbirdə qonaqları salamlayan Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova tədbirin ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə və Azərbaycan Respublikası ilə İndoneziya Respublikası arasında imzalanmış diplomatik əlaqələrin 31-ci ildönümünə həsr edildiyini qeyd etmiş və belə möhtəşəm tədbirin keçirilməsi üçün Qəbələnin seçildiyinə görə cənab səfirə minnətdarlığını bildirmişdir. Çıxış edən səfir Hildi Hamid İndoneziya Respublikasının mədəniyyəti barədə məlumat vermiş və tədbirin keçirilməsi üçün yaradılan şəraitə görə rayon rəhbərliyinə təşəkkür etmişdir. Sonda İndoneziya Respublikasının incəsənət kollektivlərinin iştirakı ilə milli musiqi və rəqslərdən ibarət konsert proqramı təqdim edilmişdir.

# Qəbələdə dövlət qulluqçularının peşə bayramı qeyd olunmuşdur



Bu gün sürətlə inkişaf edən Azərbaycanın beynəlxalq aləmdə öz nüfuzunu möhkəmləndirməsi ümummilli lider Heydər Əliyevin dövlət idarəetmə sistemində həyata keçirdiyi islahatlardan başlayıb. Prezident İlham Əliyevin bu islahatları qətiyyətlə davam etdirməsi sayəsində ölkəmizin qüdrəti gündən-günə artmaqdadır. Bu gün tam əminliklə demək olar ki, respublikamızda müasir tələblərə cavab verən dövlət idarəetmə sistemi qurulub, hakimiyyətin bütün qollarının funksiyaları dəqiq müəyyənləşdirilib, vətəndaşların hüquq və azadlıqlarının qorunması və həyata keçirilməsi üçün zəruri təsisatlar yaradılıb. Azərbaycan Respublikasında demokratik, hüquqi və dünyəvi dövlət qurulması prosesində dövlət qulluğunun rolunu və Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən iyunun 23-ü Birləşmiş Millətlər Təşkilatının Dövlət Qulluğu Günü elan edildiyini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 25 may 2006-cı ildə hər il iyunun 23-nün Azərbaycan Respublikasında Dövlət Qulluqçularının Peşə Bayramı kimi qeyd edilməsi haqqında Sərəncam imzalamışdır.

Hər il olduğu kimi bu il də 23 iyun 2023-cü il tarixdə dövlət qulluqçularının peşə bayramı ilə əlaqədar Qəbələ Rayon İcra Hakimiyyətinin kollektivi müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək, ulu öndərə öz ehtiramlarını bildirmişlər.

**“Qəbələ”**